# Mündəricat


1. **Büdcə prosesi, gəlirlər və xərclər**

- *Azərbaycanın dövlət büdcəsinin profisiti ÜDM-in 11,6 faizinə çatıb*
- *"Azərenerji"ASC dövlət büdcəsinə ödəmələri artırıb*
- *Azərbaycan DGK dövlət büdcəsinə vəsait köçürmələrini artırıb*
- *Azərbaycanın yarıdövlət bankı "Kapital Bank"da gəlirin bir hissəsi özəlləşdirilib*
- *Azərbaycanın ilin əvvəlindən rabitə sahəsinə yatırılan dövlət sərmayələri 10 milyon manatdan çoxdur*
- *Azərbaycanın dəmir yollarının inkişafı üzrə Dövlət Proqramının dəyəri artıb*
- *Azərbaycanın Nəqliyyat nazirliyi 1000 ədəd «Daewoo» avtobusu əldə etmək niyyətindədir*
- *Azərbaycan İnvestisiya Şirkətinin kapitallaşdırılması üçün yenidən Dövlət Neft Fondundan vəsait götürülə bilər*
- *Azərbaycan İnvestisiya Şirkəti toxuculuq layihəsinə 20 mln. manat yatırmağa hazırdır*
- *Azərbaycanda dövlət qulluçqusu olmayan dövlət orqanları əməkdaşlarının əmək haqları artırılıb*
- *Azərbaycan hökuməti yoxsulluq problemini tamamilə ləğv etmək niyyətindədir*
- *Azərbaycan hökuməti ehtiyac meyarının artırılması üzrə sərəncam layihəsini hazırlayıb*
- *Maliyyə Nazirliyi Azərbaycan İpoteka Fondu üçün ilk tranşı ayırıb*

2. **Vergilər**

- *Üç şirkət Azərbaycanda vergi hesab fakturasının hazırlanmasında maraqlı olduğunu bildirib*
- *2009-cu il iyulun 1-dən Azərbaycanda ƏDV-nin yeni hesablama sistemi tətbiq edilə bilər*
- *Mənfəət vergisinin sadələşdirilməsi Azərbaycanda yoxsulluğun ən azı 7 faiz azalmasına səbəb olacaq*
- *Azərbaycanda şərti maliyyə vahidinin ləğvi hesablamaları sadələş dirəcək*
- *Azərbaycan hökuməti ƏDV-dən azad edilmiş malların siyahısını genişləndirib*
- *Dövlət büdcəsinə vergi və digər ödəmələrin daxil olması haqqında məlumat*

3. **Gömrük xəbərləri**

- *Azərbaycanın Dövlət Gömrük Komitəsi hökumətə "vahid pəncərə" prinsipinin tətbiqinə dair layihə təqdim edib*
- *Azərbaycanın Dövlət Gömrük Komitəsi 2008-ci ildə gömrük tarifləri modelinin dəyişəcəyini gözləmir*
- *Azərbaycan Dövlət Gömrüyü yeni Gömrük Məcəlləsinin hazırlanmasını başa çatdırıb*
- *DGK rəhbəri avtonəqliyyat vasitələrinin Azərbaycana idxalına qoyulmuş gömrük tariflərinə yenidən baxılmasına zərurət görmür*

4. **Dövlət Neft Fondu və neft gəlirlərinin idarə olunması**

- *Azərbaycanın 2008-ci il üzrə Dövlət Neft Fondunun büdcəsi təxminən üç dəfə artırılıb*
- *USTDA Azərbaycanın Dövlət Neft Fondunun institusional inkişaf layihəsinin tam maliyyələşdirilməsindəy imtina edir*
- *Azərbaycan Dövlət Neft Fondunun xarici menecerlərin siyahısının genişlənməsinə dair planları səhm portfelinin artması ilə bağlıdır*
- *Azərbaycanın Dövlət Neft Fondu aktivlərin yerləşdirilməsinə dair yeni strategiya hazırlayır*

5. **Dövlət Neft Şirkəti və energetika**

- *Azərbaycanın Dövlət Neft Şirkəti dünya bazarlarında qiymətli kağızların yerləşdirilməsinə hazırlaşır*
- *ARDNŞ Türkiyənin tikinti şirkətində iştirak payının alınma imkanlarını öyrənir*
- *Azərbaycan Dövlət Neft Şirkətinin iştirak etdiyi şirkətlər alyansı Türkiyənin "Petkim" holdinqinin fəaliyyətini genişləndirmək niyyətindədir*
- *Azərbaycanın Dövlət Neft Şirkəti Türkiyənin iri tikinti şirkətində iştirak payının yarısını almaq niyyətindədir*
- *Hazırki şəraitdə elektrik enerjisi sektoru dövlətin mülkiyyətində olmalıdır*

6. **Beynəlxalq əlaqələr və hesabatlılıq**

- *Avropa İttifaqı ENP çərçivəsində 2009-10-cu illər üçün Azərbaycana yardımın istiqamətlərinin müəyyənləşdirilməsinə başlayır*
- *Avropa İttifaqı Azərbaycan büdcəsinin dəstəklənməsi üçün birinci tranşı maliyyə memorandumunun imzalanmasından sonra köçürməyə hazırdır*
- *Azərbaycan hökuməti və DB məcburi köçkünlərin iqtisadi inkişafı üzrə layihənin əlavə maliyyələşdirilməsi üçün müqavilə imzalayıblar*
- *«WFP» proqramının fəaliyyətinin başaçatdırılması qarşılığında Azərbaycanda məcburi köçkünlərə dövlət yardımının genişləndiriləcək*
- *Azərbaycanda beynəlxalq maliyyə hesabatları standartlarının tətbiqi çətin gedir*
- *Azərbaycan və Slovakiya gömrük problemlərinin həllində əməkdaşlıq haqqında razılığa gəlib*
- *Azərbaycan çirkli pulların yuyulması ilə mübarizə tədbirləri üzrə Avropa Şurası ilə məsləhətləşmələri davam etdirəcək*

# Büdcə prosesi, gəlirlər və xərclər

**Azərbaycanın dövlət büdcəsinin profisiti ÜDM-in 11,6 faizinə çatıb**

2008-ci ilin yanvar-aprelinin yekunlarına görə, dövlət büdcəsinin gəlir hissəsi illik hesablamada 83,4 faiz artaraq, 3427,5 mln. manat təşkil edib. Bu barədə hökumətdən məlumat veriblər. ÜDM-də gəlirlərin xüsusi çəkisi 30,7 faiz təşkil edib. Büdcə daxilolmalarının əsas hissəsi (67,9 faiz və ya 2325,8 mln. manat) proqnozu 128,5 faiz yerinə yetirmiş Vergilər Nazirliyi tərəfndən təmin olunub. Dövlət büdcəsinə vergidən daxilolmalar 58,4 faiz artıb. Dövlət Gömrük Komitəsi proqnozu 100,3 faiz yerinə yetirərək, 375,3 mln. manat (10,9 faiz) ödəyib ki, bu da ötən ilin müvafq dövründə büdcəyə ödənilmiş vəsaitlərdən 67,4 faiz çoxdur. Dövlət büdcəsinin məxaric hissəsi 2007-ci ilin yanvar-apreli ilə müqayisədə 63,2 faiz artaraq, 2131,2 mln. manat təşkil edib. ÜDM-də xərclərin xüsusi çəkisi 19,1 faiz olub. Sosial müdafə və təminata xərclər – 33,7 faiz artaraq 287,4 mln. manat, səhiyyə - – 72,3 mln. manat (42,3 faiz), təhsil – 236,6 mln. manat (35,3 faiz), sənaye, tikinti və faydalı qazıntılar - 832,7 mln. manat (2,6 dəfə), nəqliyyat və rabitə – 22,4 mln. manat (2,3 dəfə), mədəniyyət, incəsənət, bədən tərbiyəsi – 33,8 mln. manat (48,2 faiz), mənzil-kommunal təsərrüfatı – 27,7 mln. manat (78,7 faiz), kənd təsərrüfatı, balıqçılıq, ətraf mühitin mühafzəsi – 43,8 mln. manat (21,3 faiz), hüquq-mühafzə və prokurorluq orqanları – 111,9 mln. manat (19,4 faiz) artıb. Yanvar-apreldə əməkhaqqı fondunun maliyyələşdirilməsinə 659 mln. manat sərf olunub ki, bu da büdcə xərclərinin 30,9 faizini təşkil edir. Dövlət büdcəsinin profsiti 1296,3 mln. manat və ya ÜDM-in 11,6 faizini təşkil edib.

**“Azərenerji”ASC dövlət büdcəsinə ödəmələri artırıb**

“Azərenerji”ASC 2007-ci ilin ilk yarımilində dövlət büdcəsinə 37,8 mln. manat vəsait ödədiyi halda, cari ilin yanvar-iyununda 55,6 mln. manat vəsait ödəyib, - SC-nin mətbuat xidmətindən bildiriblər. Cari ilin iyununda dövlət büdcəsinə 7,2 mln. manat köçürülüb. Bu göstərici 2007-ci ilin analoji dövründə 6,8 mln. manat olub. Vəsait yığımlarında artım elektrik sayğacları quraşdırılması prosesinin başa çatması ilə bağlıdır. Bu, abonentlərdən verilən enerjiyə görə yığımları və paylaşdırıcı şəbəkələrə elektrik enerjisinin dəyərini artırmağa imkan verib.

**Azərbaycan DGK dövlət büdcəsinə vəsait köçürmələrini artırıb**

Azərbaycan Dövlət Gömrük Komitəsi (DGK) yanvar-iyunda dövlət büdcəsinə proqnozlaşdırılan 562 mil. manat əvəzinə, 563,81 mil. manat vəsait köçürüb. Dövlət Gömrük Komitəsinin yanvar-iyunda köçürmələri 2007-ci ilin ilin analoji dövrünün göstəicilərini 179,17 mil. manat və ya 53,78 faiz ötüb. Azərbaycan Dövlət Gömrük Komitəsi yanvar-may aylarında dövlət büdcəsinə proqnozlaşdırılan 462 mil.manat əvəzinə, 463,59 mil.manat vəsait köçürüb.

**Azərbaycanın yarıdövlət bankı “Kapital Bank”da gəlirin bir hissəsi özəlləşdirilib**

Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi “Kapital Bank” ASÇ-də dövlət gəlirinin özəlləşdirilməsini başa çatdırıb. Bu barədə komitənin yaydığı məlumatda deyilir. Özəlləşdirmə komissiyasının qərarı ilə dövlətə məxsus səhmlərin 85 faizini “AtaHoldinq” ASC və “Pasha Holding” MMC hər biri 30 faiz olmaqla alıblar. Səhmlərin 15 faizini “Xalq Sığorta”, yerdə qalan 10 faizini isə “Azərsun Holding” alıb. Azərbaycan Respublikası prezidentinin dövlət gəlirindən qalan 50 faizin satılması barədə 2007-ci il 19 oktyabr tarixli sərəncamına əsasən, səhmlərin 85 faizi (1, 020 milyon vahid) hüquqi şəxslərə, 10 faizi (120 min səhm) isə fziki şəxslərə satılmaq üçün hərraca qoyulub. 2008-ci il yanvarın 1-nə olan vəziyyətə görə, “Kapital Bank”ın aktivləri 249 466 min manat təşkil edir. Bankın öhdəliyi 209 555 min manat məbləğində formalaşıb. Bank əməkdaşlarının sayı 2458 nəfərdir.

**Azərbaycanın ilin əvvəlindən rabitə sahəsinə yatırılan dövlət sərmayələri 10 milyon manatdan çoxdur**

Yanvar-may aylarında Azərbaycanın rabitə və informasiya texnologiyaları sahəsinə yatırılan dövlət sərmayələri 10,8 mln. manat təşkil edhib. Bu haqda Azərbaycan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyindən bildirilib. Bu dövr ərzində idarənin əsas müəssisələri tərəfndən yatırılan investisiyalar: «Aztelekom» İB – 6813,3 min manat, «Bakı telefon rabiatəsi» İB - 2009,8 min manat, «Teleradio» İB – 262,8 min manat, «Azerpoçt» DM - 479,5 min manat təşkil edib. 2008-ci ildə Rabitə Nazirliyi rabitə sektoruna təxminən 31 mln. manat investisiya yatırmağı planlaşdırır.

**Azərbaycanın dəmir yollarının inkişafı üzrə Dövlət Proqramının dəyəri artıb**

“2008-2011-ci illər üçün Azərbaycan dəmir yollarının inkişafı üzrə Dövlət Proqramı”nın dəyəri, artan infyasiya nəzərə alınmaqla, yeni texnologiyaların istifadə olunması ilə 1,25 mlrd. manatdan 2 mlrd. manata qədər artıb, nəqliyyat nazirinin müavini Musa Pənahov bildirib. “Bu günlər artan infyasiya nəzərə alınmaqla və dünya standartlarına cavab verən yeni texnologiyalardan istifadə edilməsi ilə əlaqədar layihənin qiyməti təxminən 2 mlrd. manat təşkil edəcək” – Pənahov bildirib. Proqram çərçivəsində layihənin həyata keçirilməsinə 2009-cu ildə başlanması və dörd il ərzində başa çatdırılması nəzərdə tutulub. Proqramın həyata keçirilməsi nəticəsində Azərbaycanda dəmir yolu vasitəsilə yük daşımalarının həcminin ildə 20-25 mln. ton artacağı gözlənilir. Proqram çərçivəsində Azərbaycan dəmir yollarının dünya standartları səviyyəsində hərəkətini təşkil etmək üçün iş aparılacaq. “Biz çalışacağıq ki, bu layihə vaxtında həyata keçirilsin”, - Pənahov bildirib. Proqram artıq hazırdır, bu yaxınlarda ölkə rəhbərliyi tərəfndən təsdiq ediləcəyi gözlənilir. Proqramın əsas istiqamətləri aşağıdakılardır: Azərbaycanın dəmir yollarında birgə islahatların keçirilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi, infrastrukturun yenilənməsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi və beynəlxalq münasibətlərin genişləndirilməsi. Proqramın böyük hissəsini beynəlxalq standartlara uyğun olaraq, dəmir yollarının yenidən qurulmasını təklif edən infrastrukturlu layihələrin həyata keçirilməsi təşkil edir. “Bu iş yük daşınmalarının inkişafını, sərnişinlərin hərəkəti üçün şəraitin yaradılmasını, hərəkət sürətinin artırılmasını, yüklərin vaxtında və təhlükəsiz çatdırılmasını təmin edir. Həmçinin yeindənqurma işləri Şimal-Cənub, Şərq-Qərb istiqamətlərində yük daşınmalarında gecikməməyə imkan verəcək”, - Pənahov deyib.

**Azərbaycanın Nəqliyyat nazirliyi 1000 ədəd «Daewoo» avtobusu əldə etmək niyyətindədir**

Azərbaycanın Nəqliyyat Nazirliyi və Koreyanın «Daewoo» şirkəti Azərbaycana 300 avtobusun gətirilməsi haqqında saziş imzalayıb. Bu haqda nazirlikdən verilən məlumatda bildirilib. Sözügedən avtobuslar yaxın günlərdə Azərbaycana gətiriləcək. Görüş zamanı iki tərəf arasında Azərbaycana bu ilin sonunadək daha 700 avtobus gətirilməsi haqqında memorandum imzalanıb. Sözügedən avtobuslar əvvəllər Bakıya gətirilmiş avtobuslardan texniki parametr və rahatlığı ilə seçiləcək. Mövcud olan saziş çərçivəsində, Koreyanın «Daewoo» şirkəti Azərbaycana təxminən 200 avtous gətirib. Tədarük Azərbaycanın özəl «Trans geyt» şirkəti ilə saziş əsasında reallaşdırılır. Bakıda əvvəllər istifadə olunan avtobuslar nazirliyin texniki tələblərinə, həmçinin, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin fərmani çərçivəsində həyata keçirilən Bakı şəhərinin nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi proqramına cavab vermirdi.

**Azərbaycan İnvestisiya Şirkəti toxuculuq layihəsinə 20 mln. manat yatırmağa hazırdır**

“Azərbaycan İnvestisiya Şirkəti “ Səhmdar Cəmiyyəti iyulda Müşhaidə Şurasında “MKT İstehsal Kommersiya” MMC ilə birgə layihəyə sərmayələrin yatırılmasını təsdiqləməyi planlaşdırır. Bu barədə cümə günü AİŞ-in icraçı direktor müavini Riad Qasımov məlumat verib. İlkin hesablamalarına görə, AİŞ pambıq parça, trikotaj istehsalının təşkili, “Sumqayıt xovlu ipək”fabrikinin yenidən qurulması üçün 20 mln. manat sərmayə yatırmağı planlaşdırır. “Biz əsas şirkətin – MKT-nin kapitalına vəsait yatırmaq və 20 faizədək iştirak payı almaq niyyətindəyik”, - Qasımov qeyd edib. Layihədə bir neçə istiqamət – zavodun tikintisi, kommersiya daşınmaz əmlakı üzrə istiqamətlər, o cümlədən Sumqayıtda toxuculuq fabrikinin tikintisi nəzərdə tutulur. Hazırda AİŞ MKT-nin bu həftə təqdim etdiyi layihənin biznes-planını öyrənir. Əlavə maliyyələşdirməyə ehtiyac yaranarsa, İnvestisiya Şirkəti və Özəl Sektorun İnkişafı İslam Korporasiyasının

təsis etdikləri Caspian International Investment Company-nin (CIIC) cəlb edilməsi mümkündür. Sumqayıt trikotaj fabriki 2006-cı ildə MKT tərəfndən özəlləşdirilib.

**Azərbaycan İnvestisiya Şirkətinin kapitallaşdırılması üçün yenidən Dövlət Neft Fondundan vəsait götürülə bilər**

“Azərbaycan İnvestisiya Şirkəti” SC 2008-ci ilin sonunadək şirkətin 90 mln. manat səviyyəsində formalaşmış Nizamnamə kapitalının mənimsənilməsini başa çatdırmağı planlaşdırır. Bu barədə AİŞ icraçı direktorunun müavini Riad Qasımov məlumat verib. Bu gün AİŞ beş layihənin maliyyələşdirilməsi üçün 55,2 mln. manat investisiya yatırıb. İlin sonunadək “İstehsal Kommersiya MKT” MMC ilə toxuculuq fabrikinin tikintisinin təşkili, Cənubi Koreyanın STX şirkətiylə isə gəmiqayırma zavodunun tikintisi üzrə daha iki layihəyə investisiya yatırılması üzrə qərar qəbul etmək planlaşdırılır. Toxuculuq layıhəsinə 20 mln. manat yatırmaq planlaşdırılır və onun Müşahidə Şurasında iyulun sonunda təsdiq ediləcəyi gözlənilir. AİŞ-də qalan 15 mln. manat həcmində vəsait şirkətin gəmiqayırma zavolunun tikintisində iştirak payı üçün (10 faiz) kifayət deyil. Qasımov hesab edir ki, vəsaitin qalan hissəsi növbəti ildə ödənilə bilər. Bundan əlavə, səhmdar müqavilənin payızadək imzalanması gözlənilir və müvafq olaraq tikinti işləri 2008-ci ilin sonu – 2009-cu ilin əvvəlinə başlamayacaq. «Biz birinci tranşı bu il, qalan vəsaiti isə iri layihələrlə etdiyimiz kimi növbəti yarım ildə ödəyə bilərik», - Qasımov qeyd edib. Direktor müavininin sözlərinə görə, vəsaitlərin mənisənilməsinin başa çatması ilə əlaqədar, AİŞ ilin sonuna gələcək kapitallaşdırma ilə bağı hökuətə müraciət etməyi planlaşdırır. İnvestisiya şirkətinin Nizamnamə kapitalına əlavə vəsaitin yenidən ölkənin Dövlət Neft Fondundan köçürüləcəyi gözlənilir. Hazırki mərhələdə AİŞ-in kapitallaşdırılması dövlət vəsaitləri hesabına davam etdiriləcək. Ölkə hökuməti Cənubi Koreyanın KEPKO şirkəti tərəfndən birinci özəl istilik elektrik stansiyasının tikintisinə dair layihənin reallaşdırılmasını təqdir etdiyi halda, şirkət yalnız bu layihəyə $80 mln.-dək investisiya yatırmaq niyyətindədir. Buna müvafq olaraq AİŞ-in kapitalı 100 mln. manat artırıla bilər. İnvestiyiya şirkəti qeyri-dövlət subsidiyalarının hesabına vəsait cəlb edə bilər. Bu məsələ şirkətin Müşahidə Şurasının səlahiyyətindədir. Lakin əsas məqsəd xaricdən vəsait cəlb edə və öz qiymətli kağızlarını yerləşdirə bilən şirkətin qurulmasıdır. Yeganə problem ondadır ki, şirkətin kredit tarixi azdır. Lakin AİŞ dövlət strukturudur. O, üç il fəaliyyət göstərdikdən sonra əlavə maliyyələşdirmə cəlb edə bilər. Azərbaycan İnvestisiya Şirəktinin minimal investisiyasının məbləği 1 mln. manatdır. Maksimal limit bir layihəyə və ya onunla törəmə struktura AİŞ kapitalının 20 faizi səviyyəsində müəyyən edilib. Bu gün limit 18 mln. manatdır, lakin AİŞ-in kapitalı artdıqca dəyişəcək. AİŞ ölkə prezidentinin 2006-cı il 30 mart tarixli qərarı ilə yaradılıb.

**Azərbaycanda dövlət qulluçqusu olmayan dövlət orqanları əməkdaşlarının əmək haqları artırılıb**

Azərbaycanın Nazirlər Kabineti “Dövlət qulluğunun bəzi məsələlərinin tənzimlənməsi haqqında” qərara dəyişikliklər edib. Dəyişikliklərə əsasən, iyulun 1- dən dövlət qulluqçusu olmayan dövlət orqanları əməkdaşlarının (dalandar, bağban, mühafzəçi, ocaqçı, ixtisassız fəhlələr və s.) aylıq maaşları artırılıb. Birinci dərəcəli dövlət orqanları əməkdaşlarının vəzifə maaşı 150 manatadək, ikinci dərəcə - 140 manatadək, üçüncü dərəcə - 130 manatadək, dördüncü dərəcə - 120 manatadək, beşinci dərəcə - 110 manatadək, altıncı və yeddinci dərəcələr – 100 manatadək artırılıb.

**Azərbaycan hökuməti yoxsulluq problemini tamamilə ləğv etmək niyyətindədir**

Azərbaycan hökuməti Azərbaycanda yoxsulluq problemini tamamilə ləğv etmək niyyətindədir. Bu barədə Qarabağ əlilləri və Qarabağ müharibəsində həlak olanların ailələri üçün binanın açılışında Azərbaycanın əmək və əhalinin sosial müdafəsi naziri Fizuli Ələkbərov məlumat verib. Nazirin sözlərinə görə, Azərbaycan prezidentinin çərşənbə axşamı təsdiq etdiyi “2008-ci ildə Azərbaycanda ehtiyac meyarı haqqında” Qanuna dəyişiklik və əlavələrə əsasən, ehtiyac meyarı 45-dən 55 manatadək artırılıb. “Dövlət ünvanlı sosial yardımı haqqında” Qanuna edilən dəyişiklik və əlavələrə əsasən, ÜSY-nin məbləği 45-dən 55 manatadək artırlıb, iyulun 1-dən, sənədlərin qeydiyyatından sonra, Azərbaycanda ÜSY-nin alınması altı aydan 1 ilədək uzadılıb. Bundan sonra ölkədə daimi yaşayan əcnəbilər də ÜSY alacaqlar. ÜSP-nin ödənilməsindən imtina müddəti iki ildən bir ilədək azaldılıb.

**Azərbaycan hökuməti ehtiyac meyarının artırılması üzrə sərəncam layihəsini hazırlayıb**

Azərbaycanın Nazirlər Kabineti ünvanlı sosial yardım çərçivəsində ehtiyac meyarını iyulun 1-dən 10 manat artırılması üzrə sərəncam layihəsini hazırlayıb. Bu haqda Baş nazir Artur Rasizadə çərşənbə axşamı bildirib. «Sərəncam ölkə prezidentinin tapşırığı əsasında hazırlanıb və təsdiq edilmək üçün prezident Administrasiyasına təqdim olunacaq», - deyə hökumət başçısı bildirib. Onun sözlərinə görə, adambaşına ünvanlı sosial yardımın 45 manatdan 55 manatadək artırılması təklif olunur. Sözügedən qərar, ailə beş nəfərdən ibarət olduğu halda, hər bir ailəyə əlavə 50 manat gəlir əldə etmək imkanı yaradacaq. Hazırda ölkədə 91 min ailə ünvanlı sosial yardım alır. «Hazırda aztəminatlı ailələr inf yasiya proseslərinə görə, həqiqətən də çətinliklər yaşayır, buna görə də hökumət onlara dəstək üçün ünvanlı sosial yardım sistemindən istifadə etmək niyyətindədir», - deyə hökumət başçısı bildirib.

**Maliyyə Nazirliyi Azərbaycan İpoteka Fondu üçün ilk tranşı ayırıb**

Azərbaycan Maliyyə Nazirliyi Milli Bankın nəzdində fəaliyyət göstərən Azərbaycan İpoteka Fondu (AİF) üçün 10 mln. manat məbləğində ilk tranşı ayırıb. Bu barədə maliyyə naziri Samir Şərifov məlumat verib. Dövlət büdcəsində bu məqsədlər üçün 34 mln. manatın ayrılması nəzərdə tutulub. Nazirin sözlərinə görə, qalan vəsait AİF-in müraciətinə əsasən təqdim ediləcək. İpoteka Fondu alınmış vəsaitlərdən fonda üzv bankların mənzil maliyyələşdirməsi üçün əvvəllər ayırdıqları vəsaitlərin təkrar maliyyələşdirilməsi üçün istifadə edir. Ötən ilin iyunundan AİF tərəf ndən kreditlərin verilməsi dayandırılıb və hökumətin ipoteka kreditlərinin verilməsinə dair kommersiya təcrübəsini təsdiq etməsindən sonra bərpa olunacaq. Yeni şərtlərə əsasən, sosial ipoteka istisna olmaqla, AİF-in vəsaitləri hesabına verilən ipoteka kreditləri AMB-nin uçot dərəcəsindən (o 14 faiz təşkil edir) aşağı olmayan dərəcə ilə veriləcək. İndiyədək kreditlər AİF vasitəsilə orta hesabla illik 6-8 dərəcə ilə verilib. Hazırda kommersiya bankları özlərinin ipoteka proqramları çərçivəsində mənzil alqısını maliyyələşdirməyə davam edirlər. Bu proqramlara əsasən, kreditlər üzrə dərəcələr illik 16 faizdən 18 faizədək dəyişir. Sonuncu tranş da nəzərə alınmaqla, dövlət büdcəsində İpoteka Fonduna ipoteka kreditləri üçün 56 mln. manat ayrılıb.

# Vergilər

**Üç şirkət Azərbaycanda vergi hesab fakturasının hazırlanmasında maraqlı olduğunu bildirib**

Azərbaycan Maliyyə Nazirliyinin tender komissiyası bu həftənin sonunadək 3 mln. vergi hesab fakturasının hazırlanması üzrə tenderin qalibini elan etməyi planlaşdırır. İştirakçılar tərəfindən təqdim olunan təkliflər paketi iyulun 9-da açılıb. Tenderdə iştiraka üç Azərbaycan şirkəti buraxılıb. Bunlar «Çaşıoğlu», «Xazar Etiket» və «Novruz-94» şirkətləridir. Bu ciddi hesabat blanklarının mərkəziləşdirilmiş qaydada hazırlanmasına 2006 - cı ildən başlanıb və həmin ilin iyul ayının 1- də fəaliyyətə tətbiq edilib. Buna hesabatın mərkəzləşdirilmiş qaydada aparılması niyyəti ilə əlaqədar lüzum yaranıb. Vergilər Nazirliyinə həmin nömrələr ilə blankların yenidən çap edilməsinə dair xeyli ərazilər daxil olur. Hazırda bu variant mümkün deyil. Maliyyə Nazirliyi mərkəzləşdirilmiş uçot aparır və hər ay Vergilər Nazirliyini məlumatlandırır. Bütün sifarişlər (3 mln.) təqribən vergi ödəyənlərin tələbatlarını ödəyir. Artıq iki il ardıcıl «Çaşıoğlu» şirkəti Maliyyə Nazirliyinin sifarişini qəbul edir. İlk sifariş 166,38 min manata, ikinci dəfə isə 177 min manata başa gəlib.

**2009-cu il iyulun 1-dən Azərbaycanda ƏDV-nin yeni hesablama sistemi tətbiq edilə bilər**

Azərbaycanın Maliyyə Nazirliyi əlavə dəyər vergisinin hesablanması sisteminin dəyişdirilməsini təklif edir. Yeni sistem 2009-cu il iyulun 1-dən tətbiq oluna bilər. Bu barədə maliyyə nazirinin müavini Azər Bayramov məlumat verib. “Bu dəyişikliklər 2010-cu ildən ƏDV dərəcəsinin azaldılması ilə paralel olaraq tətbiq oluna bilər. Biz artıq bununla əlaqədar müxtəlif təşkilatlar, konsaltinq, audit şirkətlərindən təkliflərin toplanmasına başlamışıq”, - Bayramov dəqiqləşdirib. Onun rəyinə görə, sistemi artıq dəyişmək lazımdır. O, hələ ki, dövlət büdcəsinin gəlir hissəsində öz əksini tapmasa da, qeyri-neft sektorunun inkişaf etməsi ilə əlaqədar artıq beş ildən sonra ciddi problemlər yarana bilər. Qazaxıstan, Gürcüstan və Türkmənistanla iqtisadi əlaqələrin fəallaşmasını nəzərə almaqla, vergi tərkibinin nəzərəçarpacaq istiqamət olduğu normal biznes-mühitin yaradılması çox vacibdir. Biznesin “vahid pəncərə” sistemi üzrə qeydiyyatında keçid, həmçinin, vergi bəyannamələrinin İnternetlə qəbulu böyük addım olub. Azərbaycan hökuməti 2009-cu il üçün büdcə paketi çərçivəsində, Vergi Məcəlləsinə dəyişiklik və əlavələrin edilməsindən imtina edərək, kompleks yanaşma üçün onları 2010-cu ilə hazırlamağı məqsədəuyğun hesab edib. Buna baxmayaraq, Vergi Məcəlləsinə dair təkliflər hazırlanıb və Azərbaycan hökuməti bu təkliflərin birinci yarımildə qəbul edilməsi üçün layihəni mayın 15-dək parlamentə təqdim etmək niyyətində olub. İlk dəfə olaraq, vergi qanunvericiliyinə dəyişikliklər dövlət büdcəsindən ayrı qəbul ediləcək. Bu, büdcə proqnozlarının nəzərdən keçirilməsi və təsdiqi prosesini asanlaşdırıb, həmçinin, vergi ödəyicilərinə qanunvericilikdəki dəyişikliklərlə vaxtında tanış olmaq imkanı verib. Təkliflərə əsasən, növbəti ildə vergi inzibatçılığının təkmilləşdirilməsi ilə yanaşı, mənfəət vergisi və ƏDV dərəcəsinə yenidən baxmaq planlaşdırılırdı. Mənfəət vergisi üzrə dərəcənin hazırki 22 faizdən 20 faizədək, ƏDV üzrə isə 18 faizdən 17 faizədək azaldılması təklif edilirdi.

**Mənfəət vergisinin sadələşdirilməsi Azərbaycanda yoxsulluğun ən azı 7 faiz azalmasına səbəb olacaq**

2010-cu ilin yayında Azərbaycanda mənfəət vergisi və ƏDV-nin azaldılması gözlənilir və bu, kiçik və orta biznesin inkişafında katalizator kimi çıxış edəcək. Bu, iş yerlərinin sayının artması hesabına ölkədə yoxsulluq problemini həll etməyə imkan verəcək. Məhz KOM istənilən inkişaf etmiş iqtisadiyyatın əsasını təşkil edir, əmək bazarının və əhalinin məşğulluğun inkişafı və beləliklə, ölkədə həyat səviyyəsinin artması yükü onların üzərinə düşür. Azərbaycan əhalisi 8,5 mln. nəfərdir və son illərdə yoxsulluğun azalması istiqamətində müəyyən müsbət irəliləyişlər olsa da, respublika vətəndaşlarının 1,3 mln.-u hələ də yoxsulluq həddində yaşayır. Azərbaycan Maliyyə Nazirliyinin hələ mayın əvvəlində parlamentə təqdim edilmiş və 2009-cu ilin yayna nəzərdə tutulmuş vergi dərəcələrinin azalması üzrə layihəsi təxirə salınıb. Layhihədə mənfəət vergisi dərəcəsinə (hazırki 22 faizdən 20 faizədək, ƏDV üzrə isə, 18 faizdən 17 faizədək) yenidən baxmaq təklif olunurdu. Kompleks yanaşma üçün onları 2010-cü ildə hazırlamaq məqsədəuyğun hesab edilib. 2006-cı il yanvarın 1-dən Azərbaycanda mənfəət vergisinin dərəcəsi 24 faizdən əvvəlki 22 faizədək endirilib. Bu dövrdə hüquqi şəxslərin sayı il ərzində 6 faiz artıb və məhz bu il ölkədə yoxsulluq faizi 9 faiz azalıb və bu kiçik göstərici deyil. Belə ki, 2006-cı ilin yekunları üzrə respublikada yoxsulluq səviyyəsi 29

faizdən 20 faizədək, 2007-ci ildə isə 20 faizdən 16 faizədək artıb. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin sayı isə bütün 2006-cı il ərzində 6,8 faiz artıb və 339147 sahibkar olub. Güman etmək olar ki, növbəti dəfə mənfəət vergisi 22 faizdən 20 faizədək endirildikdən sonra, respublikada yoxsulluq ən azı 7 faiz azalmalı, sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı is,ə 400 min nəfəri ə ötməlidir. Vergilər iqtisadi artım və sosial müdafə arasında balansıdr. O düzəldildikdən sonra sonuncunun mexanizmləri işləməlidir. Vergi islahatı bizdə kifayət qədər dar olan ödəyici dairəsinin genişlənməsinə təsir edəcək.

**Azərbaycanda şərti maliyyə vahidinin ləğvi hesablamaları sadələş dirəcək**

Bundan sonra Azərbaycanda dövlət rüsumları, birdəfəlik yığımlar, cərimələr, maliyyə sanksiyaları və başqa ödəmələrin hesablandığı şərti maliyyə vahidi mütləq rəqəmlərə dəyişdirilib. Bu addımın rahatlılığı vergi və ya cərimələrin ödənilməsi zamanı məbləğin konkretləşdirilməsində və çətin hesablamalar təcrübəsindən uzaqlaşmaqdadır ki, bu da müvafq olaraq, vətəndaş və qanun arasında fkir ayrılıqlarını aradan qaldıracaq. Azərbaycan prezidenti dünən şərti maliyyə vahidinin məcburi rəqəmlərə dəyişdirilməsi və bununla əlaqədar normativ və qaunverici aktlara dəyişikliklər edilməsi haqqında Qanun imzalayıb. Sənəddə deyilir ki, Nazirlər Kabineti və digər icra hakimiyyəti orqanlarına normativ aktlara sərəncamdan irəli gələnən zəruri dəyişikliklər etmək, ay ərzində təklifər hazırlamaq tapşırılıb. Əvvəllər Azərbaycanda "Şərti maliyyə vahidi haqqında" 2000-ci il 26 dekabr tarixli AR Qanunu fəaliyət göstərib. Bu Qanuna əsasən, 2001-ci il yanvarın 1-dən etibarən, şərti maliyə vahidi 1,10 manat səviyyəsində müəyyən edilib. Buna qədər ölkədə şərti maliyyə vahidi qismində 1,1 manat məbləğində (5500 AZM) minimal əmək haqqı çıxış edib. Şərti maliyyə vahidinin ləğvi barədə ilk təklifər Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komissiyasının bu ilin mayında keçirilən iclasında səslənib. İclasda Vergi Məcəlləsi və Azərbaycanın İnzibati Xətalar Məcəlləsindən "şərti maliyyə vahidi" anlayışının ləğvi təklif irəli sürülüb. Təklif edilmiş dəyişikliklərə əsasən, hər maddədə şərti maliyyə vahidləri konkret rəqəmlərlə göstərilib. İndiyədək adları çəkilən Məcəllələrə müvafq olaraq, vətəndaşlara tətbiq edilən cərimələrin məbləği şərti maliyyə vahidi ilə hesablanıb. "Şərti maliyyə vahidi" anlayışı dünyanın əksər ölkələrinin analoji qanunverici aktlarından çıxarılıb.

**Azərbaycan hökuməti ƏDV-dən azad edilmiş malların siyahısını genişləndirib**

Azərbaycanın Nazirlər Kabineti əlavə dəyər vergisindən (ƏDV) azad edilmiş malların siyahısını genişləndirib. Nazirlər Kabinetinin sərəncamına əsasən, Azərbaycan Müdafə Sənayesi Nazirliyi və onun tabeliyində olan müəssisələr tərəfndən müdafə təyinatlı məmulatların istehsalı və müdafə təyinatlı infromasiyanın yaradılması məqsədilə idxal edilən texnologiyalar, avadanlıqlar və dəstləşdirici hissələr ƏDV-nin ödənilməsindən azad edilib. Azərbaycanın Nazirlər Kabineti dəyişiklik və əlavələri Müdafə Sənayesi Nazirliyi və onun tabeliyində olan müəssisələrin fəaliyyətinin sağlamlaşdırılması üzrə tədbirlər haqqında dövlət başçısının 2008-ci il 24 iyun tarixli fərmanı çərçivəsində təsdiqləyib.

**Dövlət büdcəsinə vergi və digər ödəmələrin daxil olması haqqında məlumat**

**Yanvar-iyun, 2008** (min AZN), Naxçıvan MR ilə

| **Vergi və tədiyyələrin növləri** | **2008, yanvar-iyun** | | | |
|---|---|---|---|---|
| | **Proqnoz** | **Daxilolma** | **Faiz** | **Fərq** |
| Əlavə dəyər vergisi | 476 229,1 | 497 053,9 | 104,4 | 20 824,8 |
| Aksiz | 175 214,9 | 179 849,0 | 102,6 | 4 634,1 |
| Mənfəət vergisi | 1 382 253,7 | 1 591 856,6 | 115,2 | 209 602,9 |
| Mədən vergisi | 65 774,9 | 67 454,4 | 102,6 | 1 679,5 |
| Torpaq vergisi | 14 472,0 | 22 021,3 | 152,2 | 7 549,3 |
| Əmlak vergisi | 52 892,2 | 53 478,1 | 101,1 | 585,9 |
| Fiziki şəxslərin gəlir vergisi | 361 941,1 | 298 305,1 | 82,4 | -63 636,0 |
| Dövlət rüsumu | 25 344,0 | 29 455,4 | 116,2 | 4 111,4 |

| | | | | |
|---|---|---|---|---|
| Yol vergisi | 12 617,8 | 12 867,9 | 102,0 | 250,1 |
| Sadələşdirilmiş vergi | 30 539,3 | 28 209,4 | 92,4 | -2 329,9 |
| Sair daxilolmalar | 99 441,0 | 131 454,4 | 132,2 | 32 013,4 |
| o cümlədən:<br>- qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən büdcəyə ödənişlər; | | 115 572,8 | | 115 572,8 |
| - dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən icarə haqqı | 1 920,0 | 729,8 | 38,0 | -1 190,2 |
| **C Ə M İ** | **2 696 720,0** | **2 912 005,5** | **108,0** | **215 285,5** |

# Gömrük xəbərləri

**Azərbaycanın Dövlət Gömrük Komitəsi hökumətə "vahid pəncərə" prinsipinin tətbiqinə dair layihə təqdim edib**

Azərbaycanın Dövlət Gömrük Komitəsi (DGK) Nazirlər Kabinetinə ölkənin gömrük-buraxılış məntəqələrində "vahid pəncərə" prinsipinin tətbiqinə dair layihə təqdim edib. Layihədə bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Dünya təcrübəsinə müvafiq olaraq, Gömrük Komitəsinin sərhəd vasitəsilə yük yerdəyişmələrinin vahid koordinasiya edən qeydiyyat orqanı olacağı istisna deyil. Azərbaycanda biznesin qeydiyyatına dair «vahid pəncərə" prinsipi artıq tətbiq olunur. Bu prinsip 2008-ci il yanvarın 1-dən Vergilər Nazirliyi tərəfindən aparılır. Hazırda yük sərhəd məntəqəsindən keçərkən 5-6 dövlət orqanının – DGK, DİN, Səhiyyə Nazirliyi, Metrologiya, Standartlaşdırma və Patent üzrə Dövlət Agentliyinin və s. yoxlamasından keçir. Əliyev «vahid pəncərə»nin tətbiqindən sonra sənədlərin sayını və qeydiyyat dövrünü bildirməkdə çətinlik çəkib. «Hansısa limitləri müəyyən etmək çətindir. Belə ki, bəzən elə hallar olur ki, bəzi sənədlərlə bir həftədən çox işləmək lazım olur, - Əliyev bildirib. Səndələrin doğruluğunun təsdiq edilməsi üçün hər hansı bir ölkəyə adi müraciət onların hər birində müxtəlif dövr ərzində həyata keçirilir – üç gün, ola bilər ki, üç il». Onun rəyinə görə, sənədlər düzgün olduğu zaman malların qeydiyyat dövrü bir neçə dəqiqə vaxt apara bilər. Hazırda Dövlət Gömrük Komitəsi gömrük orqanlarının fəaliyyətinin yoxlanılması üçün sərhəd məntəqələri üzrə xronometraj, həmçinin, yüklər sərhəddən keçirilərkən onların qarşılaşdığı problemlərin aşkar edilməsi üçün monitorinq aparır. «Gömrük orqanları hökumətə təkliflər vermək üçün dövri olaraq belə analitik iş aparırlar», - DGK-nin rəhbəri bildirib.

**Azərbaycanın Dövlət Gömrük Komitəsi 2008-ci ildə gömrük tarifləri modelinin dəyişəcəyini gözləmir**

2008-ci il ərzində 2001-ci ildə qəbul edilmiş gömrük tarifləri sisteminə dəyişikliklərin edilməsi nəzərdə tutulmur. Bu barədə Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev məlumt verib. Əvvəllər DGK dördsəviyyəli differensiyalaşdırılmış tarif sisteminə keçidlə əlaqədar hökumətdə təkliflə çıxış edib. 2001-ci ildən bu günədək respublikada 0%, 0,5%, 1%, 3%, 5%, 10% və 15% dərəcələr fəaliyyət göstərir. Gömrük komitəsi 0%, 5%, 10% və 15% faiz dərəcələrini saxlamağı təklif edib. Bunla yanaşı, istehsal təyinatlı malların (xammal və avadanlıq) böyük hissəsi, hətta bu gün 0,5 faiz üzrə gömrük rüsumu alınan mallara da sıfır dərəcə üzrə vergi qoyulacaq. Bu artıq Nazirlər Kabinetinin sərəncamı ilə idxal zamanı sıfır dərəcə üzrə ƏDV-nin tətbiq ediliyi mal qruplarına (xüsusilə də 84-cü və 85-ci qruplar) aiddir. Respublikaya idxal olunan malların 10 -15 faizi onların payına düşür. Əliyevin sözlərinə görə, gömrük rüsumlarının dəyişdirilməsi ilin sonuna, dövlət büdcəsinin müzakirəsi zamanı nəzərdən keçirilə bilər. İl ərzində isə, düyü, un və buğda ilə olduğu kimi (ƏDV-dən azad edilmə müddəti daha bir il uzadılıb), yalnız fövqəladə hallarda idxal zamanı vergitutmadan azad etməyə dair qərarlar qəbul edilir. Gömrük rüsum və vergilərinin toplanılması üzrə plan göstəriciləri artsa da, vergi güzəştlərinin tətbiqi milli maraqlar baxımından zəruri olub. DGK rəhbərinin rəyinə görə, dünyada taxıl məhsullarının qiymət artımı daxili taxıl bazarında xüsusilə, əksini tapmayıb. Lakin, bu qərar taxıl idxalının artırılması deyil, bazarda taxılkimilərlə bağlı əsas qida məhsulların olan qiymətlərin sabitləşdirilməsi üçün qəbul edilib. Dövlət Gömrük Komitəsi vergi güzəştlərinin tətbiq edilməsinə dair təşəbbüs irəli sürmüş birinci orqanlardan olub, - Əliyev bildirib. Biz beşaylıq planı yerinə yetirmişik və 1,110 mlrd. manat proqnozun yerinə yetirilməsi üçün yeni ehtiyatlar axtarmaq niyyətindəyik». Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzr olması çərçivəsində, gömrük orqanlarının üzərinə iki vəzifə qoyulub – gömrük vergi və rüsumlarına yenidən baxılmsaı və yeni modelin tətbiqi, həmçinin, əqli mülkiyyət hüquqlarının müdafiəsinin təmin edilməsi.

**Azərbaycan Dövlət Gömrüyü yeni Gömrük Məcəlləsinin hazırlanmasını başa çatdırıb**

Azərbaycan Gömrük Məcəlləsinin yeni variantı baxılması üçün ölkənin Nazirlər Kabinetinə artıq təqdim olunub. Bu haqda Dövlət Gömrük Komitəsinin (DGK) sədri Aydın Əliyev bildirib. Məcəllənin hazırlanmasında 24 dövlət təşkilatlarının təklifləri nəzərə alınıb. Əliyev sənədin həcminin böyük olmasına görə onun Milli Məclisin payız sessiyasında müzakirəsini mümkün olacağını düşünmür. Beynəlxalq

standartlara uyğun qanunvericilik bazasının təkmilləşdirilməsi gömrük xidmətinin təkmilləşdirilməsi üzrə BMT İnkişaf Proqramı və Avropa İttifaqının layihəsi çərçivəsində nəzərdə tutulmuşdu. Azərbaycanda gömrük sisteminin davamlı inkişaf təminatı üçün vəzifələrdən biri də Gömrük Məcəlləsinin yeni variantını hazırlanmasıdır. Məcəllənin hazırlanmasına cəlb olunan ekspert əvvəllər Rusiya və Qazaxıstanda işləyib. Məcəllədə informasiya texnologiyaları tətbiq olunub, həmçinin, başlıca olaraq gömrük işçisinin imkan və fəaliyyətini əks etdirən maddələrə diqqət yetirilib. Hazırda qüvvədə olan Məcəllə 1997-ci ildə qəbul olunub. Hələ 2007-ci ilin fevralında gömrük sisteminin beş illik (2007-2011-ci illər üçün) inkişafı Proqramı təsdiq olunub. Gömrük orqanlarının maddi-texniki bazasının yaxşılaşdırılması, kadrların hazırlanması, gömrük-nəzarət sisteminin gücləndirilməsi, fiskal funksiyanın yerinə yetirilməsi, gömrük cinayətkarlığı ilə mübarizə, gömrük sahəsinə müasir informasiya texnologiyaların tətbizi sözügedən Proqramın prioritetləridir.

**DGK rəhbəri avtonəqliyyat vasitələrinin Azərbaycana idxalına qoyulmuş gömrük tariflərinə yenidən baxılmasına zərurət görmür**

Azərbaycanın Dövlət Gömrük Komitəsi (DGK) istismar müddətinə əsaslanaraq, avtonəqliyyat vasitələrinin respublikaya idxalına məhdudiyyət qoyulmasına dair təklifə hökumətə yenidən müraciət etməyə zərurət görmür. Bu barədə DGK-nın sədri Aydın Əliyev məlumat verib. «Biz Gömrük Komitəsinin birinci müraciətindən sonra bu təklifin dəstəyini almadıq. Bunun əvəzinə, nəqliyyat vasitələrinin idxalına münasibətdə aksiz vergisi tətbiq edildi, - Əliyev qeyd edib. Bu, gömrük yığımlarını artırmağa imkan verdi ki, bu da dövlət büdcəsinə əlavə daxilolmalar gətirir». Yalnız may ərzində ölkəyə idxal olunan avtomobillərdən toplanan gömrük vergi və rüsumlarından 24 mln. manat (30 mln. dollar) alınıb və buna görə də , DGK bu gün avtonəqliyyat vasitələrinin istismar müddətinə əsaslanalaraq, məhduiyyətlərin tətbiq edilməsi məsələsini qaldırmaq niyyətində deyil. O, həmçinin, avtonəqliyya vasitələrinin idxalına qoyulmuş gömrük tariflərinə yenidən baxılmasına zərurətin olduğunu görmür. Belə ki, bu günkü dərəcələr onların Azərbaycana idxal həcminə mənfi təsir göstərmir. 2006-cı ilin son aylarında onların idxalının qəfil artması müşahidə olunurdusa, 2007-ci ildən aksizlərin tətbiqi ilə bu tendensiya bu gün də davam edir. DGK rəhbərinin rəyinə görə, bu il ölkəyə ötənilki göstərici səviyyəsində - 70 mindən çox avtonəqliyyat vasitələrinin idxalı gözlənilir. «Daxilolmalar müəyyən gömrük dəyərindən, daha dəqiq cəlbetmədən asılıdır. Bundan əlavə, əvvəlki illərdən fərqli olaraq, ölkədə tikinti işlərinin həcminin artması ilə əlaqədar bir çox xüsusi tikinti-nəqliyyat vasitələri, əvvəllər olduğu kimi, müvəqqəti istifadə üçün deyil, daimi iş üçün gətirilir», - Əliyev dəqiqləşdirib. DGK-nin avtonəqliyyat gömrük idarəsi dövlət büdcəsinə daxilolmaların nəzərəçarpacaq hissəsini təmin edir. 2008-ci il üçün Dövlət Gömrük Komitəsinin dövlət büdcəsinə proqnozlaşdırılan ödəmələri 1,11 mlrd. manat səviyyəsində nəzərdə tutulub.

# Dövlət Neft Fondu və neft gəlirlərinin idarə olunması

## Azərbaycanın Dövlət Neft Fondu aktivlərin yerləşdirilməsinə dair yeni strategiya hazırlayır

Azərbaycanın Dövlət Neft Fondu (ARDNF) 2009-cu ildən etibarən, Fondun aktivlərin yerləşdiriləcəyi səhm portfelini genişləndirməyi planlaşdırır. Bu barədə ARDNF-in icraçı direktoru Şahmar Mövsümov məlumat verib. 2007-ci ilin yekunları üzrə səhmlərə Fondun aktivlərinin cəmi 0,1 faizi yerləşdirilib. «Neft Fondunun gəlirləri böyük sürətlə artır və uzun müddətə saxlanılmaq üçün nəzərdə tutulmuş pulları böyük gəlir gətirən daha uzunmüddətli və riskli aktivlərə yerləşdirmək lazımdır», - Mövsümov dəqiqləşdirib. Hazırda Neft Fondu aktivlərin yerləşdirilməsinə dair yeni strategiya üzrə təkliflər hazırlayır. Təkliflər yaxın vaxtlarda nəzərdən keçirilmək üçün Müşahidə Şurasına təqdim olunacaq. Öz növbəsində, Şura onları nəzərdən keçirilmək üçün ölkə prezidentinə təqdim edəcək. Mövsümov səhm portfelinin hansı səviyyəyədək artırılacağını söyləməkdə çətinlik çəkib. 2007-ci ildə Fond investisiya portfelinin qısamüddətli alətlərə yerləşdirilməsi siyasətini təklif edib və aktivlərin 96 faizi beş ilədək müddətə yatırılmış vəsaitlərin payına düşür. Bu gün akivlərin yerləşdirilməsi müddəti ən vacib göstəricilərdən biridir. Hazırda inkişaf etmiş ölkələrdə (ABŞ, Yaponiya, İngiltərə) belə tendensiya yaranıb ki, qısamüddətli investisiyalar uzunmüddətli investisiyalardan daha çox gəlir gətirir. Bununla əlaqədar, Neft Fondu 2005-ci ildən başlayaraq, dünya bazarlarında yaranan vəziyyətə görə, vəsaitləri qısamüddətli kağızlara yerləşdirir. Ötən ilin yekunları üzrə 24,82 faiz bir ilədək, 43,34 faiz – bir ildən üç ilədək, 27,83 faiz – 3 ildən 5 ilədək, 2,95 faiz – 5 ildən 7 ilədək və 1,06 faiz 7 ildən çox müddətli qiymətli kağızlarda yerləşdirilib. ARDNF aktivlərin qiymətli kağızlarda yerləşdirilməsinə dair mühafizəkar siyasət həyata keçirir. Aktivlər, əsasən ,Moody və Standard & Poor kimi beynəlxalq reytinq agentliklərinin yüksək reytinq verdikləri istiqrazlarda yerləşdirilir. Hazırda Fondun aktivlərinin 48,13 faizi S/P və «Aaa» – Moody`s versiyası üzrə «AAA» reytinqli QK-da, 30,82 faiz - müvafiq olaraq «AA», AA+, AA- və Aa1, Aa2,Aa3, 15,72 faiz - «A», «A+», «A-« və «A1», «A2», «A3», 3,26 faiz - «VVV», «VVV+», «VVV-« və «Vaa1», «Vaa2», «Vaa3», 2,07 faiz – «VV», «VV+», «VV-« və «Va1», «Va2», «Va3» yerləşdirilib. Fondun aktivləri investisiya reytinqindən aşağı QK-da yerləşdirilə bilməz. Neft Fondun aktivlərinin yerləşdirmə coğrafiyası aşağıdakı kimidir: 50,73 faiz ABŞ-da, 41,06 faiz – Avropa ölkələri, 4,85 faiz – Asiya, 3,36 faiz – digər ölkələrdə.

## USTDA Azərbaycanın Dövlət Neft Fondunun institusional inkişaf layihəsinin tam maliyyələşdirilməsindəy imtina edir

ABŞ-ın Ticarət və İnkişaf üzrə Agentliyi (USTDA) Azərbaycanın Dövlət Neft Fondunun (ARDNF) institusional inkişafı layihəsinin üçüncü fazasının tam maliyyələşdirilməsindən imtina edir. Bu barədə ARDNF-in icraçı direktoru Şahmar Mövsümov məlumat verib. «USTDA-nın şərtlərindən biri belədir ki, o, layihənin dəyərinin 50 faizinin maliyyələşdirilməsi üçün qrant ayırmağa hazırdır, - Mövsümov qeyd edib. Bu Azərbaycanın iqtisadi vəziyyəti və ARDNF-in artan aktivləri ilə izah olunur». Bununla əlaqədar Amerika agentliyi birgə maliyyələşdirməni təklif edir.Xərclərin qalan hissəsi Azərbaycan hökuməti və Neft Fondunun vəsaitləri hesabına ödəniləcək. Fond rəhbərinin sözlərinə görə, hazırda bu məsələ ilə əlaqədar USTDA ilə danışıqlar davam etdirilir. Layihənin üçüncü fazasının reallaşdırılması üçün ilkin hesablamalara görə, $700-800 min tələb olunacaq. Layihənin üçüncü fazasına – bu faza üzrə təkliflər artıq nəzərdən keçirilmək üçün agentliyə təqdim olunub – menecerlərin seçilməsinə və onların idarə edilməsinə yardım, həmçinin Fondun əməkdaşlarının treninqi üçün daxili sistemin yaradılması (daimi əsasda əməkdaş hazırlayacaq daxili məktəbi xatırladacaq) daxildir. Neft Fondunun gələcək institusional inkişafına zərurət neftdən gələn böyük daxilolmalarla əlaqədardır. «Bununla əlaqədar biz iri gəlirlərin alınmasına hazırlıq məqsədi daşıyan iki il əvvəl başlanılmış hazırlıq işini davam etdiririk və o müasir texnologiyaların, PT-nin tətbiq edilməsi, həmçinin fondun kadr potensialı səviyyəsinin artırılması istiqamətində aparılır», - Mövsümov bildirib. Amerikanın Overture Financial Services şirkəti ötən ildən başa çatmaq üzrə olan texniki yardımın ikinci fazası çərçivəsində mühasibat sisteminin təkmilləşdirilməsi, risklərin və gəlirliliyin qiymətləndirilməsi sisteminin qurulması üçün sxemin seçimində məsləhət göstərilməsi, həmçinin investisiya portfelinin idarə edilməsi ilə bağlı yardım göstərir. USDTA-nın bu işlərin həyata keçirilməsi üçün nəzərdə tutulan qrantı $855, 075 min təşkil edib. Bundan əlavə, Overture Managed Solutions birinci faza çərçivəsində ARDNF-in məsləhətçisi olub. TDA-nın birinci mərhələ çərçivəsində texniki yardımı $1,091 mln. məbləğində olub.

**Azərbaycan Dövlət Neft Fondunun xarici menecerlərin siyahısının genişlənməsinə dair planları səhm portfelinin artması ilə bağlıdır**

Azərbaycanın Dövlət Neft Fondu yeni xarici menecerləri 2009-cu ilin əvvəlindən tez cəlb etmək niyyətində deyil. Bu barədə ARDNF-in icraçı direktoru Şahmar Mövsümov məlumat verib. Onun sözlərinə görə, hazırda mövcud menecerlərlə - Clarident (Credit Suisse-nin bölməsi), Deutschebank Asset Management bankları və Dünya Bankının xəzinədarlğı ilə iş aparılır. «Biz onlara, xüsusilə də DB ilə işimizdən razıyıq və müqavilələrin pozulması Neft Fondunun planlarına daxil deyil. Əksinə, gəlirlərimizin artması ilə əlaqədar neft fondunun xarici menecerlərinin siyahısı genişlənəcək», - Mövsümov bildirib. Bu gün Fondun vəsaitlərinin beş faizdən az bir hissəsi idarə edilmək üçün xarici menecerlərə verilib. Əsas portfeli isə, ARDNF özü idarə edir. ARDNF rəhbəri belə nisbəti Fondun aktivlərinin yerləşdiyi qiymətli kağızların təsbit edilmiş gəlirə malik olduğu və xarici menecerlərin buna heç bir şey əlavə edə bilməyəckləri ilə izah edir. Lakin səhm portfelinin genişlənməsindən sonra onların peşəkar təcrübə və biliklərinə tələbat yarancaq. Hazırda Neft Fondunun üç xarici mencerin idarəsinə verilmiş ümumi aktiv portfeli $244,31 mln. təşkil edir. Clarident (Credit Suisse-nin bölməsi) bankının sərəncamında fondun aktivlərindən $49,96 mln., Deutschebank Asset Management - $84,17 mln., RAMP proqramı (Reserve Assets management programme) çərçivəsində Dünya Bankı xəzinədarlığının idarəsində isə – $110,18 mln. var. Deutschebank-ın idarəsində olan vəsaitlərin xüsusi çəkisi – 34,45 faiz, Clarident – 20,45 faiz, DB – 45,1 faiz təşkil edir. Vəsaitlərin idarə edilməsi üzrə gəlirlilik illik hesablama ilə müəyyən edilir. Ötən ilin yekunları üzrə fondun Clarident-ə verilmiş portfelinin idarə edilməsindən gəlirlilik – 6,43 faiz, Deutschebank- 5,82 faiz, DB – 7,08 faiz təşkil edib. Neft Fondunun aktivləri $5,05 mlrd. təşkil edib. Mövsümov 2008-ci ilin sonunadək bu rəqəmin $10 mlrd.-ı ötəcəyini hesab edir.

**Azərbaycanın 2008-ci il üzrə Dövlət Neft Fondunun büdcəsi təxminən üç dəfə artırılıb**

Prezidentin fərmanı ilə Azərbaycanın 2008-ci il üzrə Dövlət Neft Fondunun (ARDNF) büdcəsinə əlavə və dəyişikliklər təsdiq edilib. Fərmana əsasən fond əvvəllər proqnozlaşdırılan 1 928,508 milyon manat əvəzinə 5 763,89 milyon manatla yenidən təşkil edilib. Fondun gəlirləri 10 144 743,2 min manat səviyyəsində müəyyənləşərək, əvvəlki proqnozlara nisbətən 2,8 dəfə artıb, xərclər isə, 2,6 dəfə artımla 4 380 853,6 min manat olub. Fonda əsas daxilolmalar (96,8 faiz) karbohidrogen satışından gözlənilir. Mövcud neft müqavilələrindən olan gəlirlər 9 819 516 min manat səviyyəsində proqnozlaşdırılır (əvvəllər 3 473 109,6 min manat nəzərdə tutulurdu). Bakı-Tbilisi-Ceyhan layihəsi üzrə dividendlərdən olan gəlirlər 104 806 min manat (13 423,2 min manat) olub. Neft fondunun vəsaitlərinin idarə edilməsindən gəlirlər 148 898,1 min manat (121 928,2 min manat), digər gəlirlərdən isə, əvvəllər nəzərdə tutulduğu kimi, 900 min manat səviyyəsində olması gözlənilir. Neft Fondunun xərcləri strukturunda dəyişikliklər 1100 milyon manatdan 3 800 milyon manatadək artan dövlət büdcəsinə edilən transferlərə toxunub. Digər xərclər üzrə, əvvəllər olduğu kimi, qaçqın və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərə 145 milyon manat, Samur-Abşeron suvarma sisteminin yeniləşdirilməsi üzrə 120 600 min manat və Oğuz-Qəbələ zonasından Bakıya su kəmərinin çəkilişinə 211 820 min manat, Bakı-Tbilisi-Qars dəmiryolu magistralının çəkilməsinə 88 682 min manat, Azərbaycan gənclərinin xaricdə təhsil alması üzrə Dövlət Proqramına 5 milyon manat xərclənib. Neft Fondunun idarə edilməsi üzrə xərclər 9 751,6 min manat məbləğində planlaşdırılıb. Əvvəl təsdiq olunmuş büdcəyə əsasən, gəlirlər 3 609 361 min manat, xərclər 1 680 853,6 min mant səviyyəsində idi. Büdcə proqnozlarının düzəlişlərinə zərurət dünya bazarlarında neftin qiymətinin artması ilə bağlı olub. Bunun nəticəsində, hökumət hər barel üçün proqnozu $50-dan $70-dək artırdı. Bu dəyişiklik 2008-ci ilin mayında dövlət büdcəsinə edilən dəyişikliklər çərçivəsində tətbiq olunmağa başladı.

# Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) və energetika

**Azərbaycanın Dövlət Neft Şirkəti dünya bazarlarında qiymətli kağızların yerləşdirilməsinə hazırlaşır**

Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) sentyabrda Moody`s və Fitch Ratings şirkətlərinə təqdim etmək üçün sənədlərin beynəlxalq standartlar üzrə hazırlanmasını başa çatdırmağı planlaşdırır. Bu şirkətlərlə beynəlxalq reytinqin alınmasına dair saziş bağlanıb. Bu barədə jurnalistlərə ARDNŞ-nin maliyyə üzrə vitse-prezidenti Süleyman Qasımov məlumat verib. Beynəlxalq reytinqin alınması ARDNŞ-ə öz qiymətli kağızlarını dünya bazarlarında yerləşdirmək imkanı verəcək. ARDNŞ güman edir ki, qiymətli kağızlar $300-500 mln. məbləğində yerləşdiriləcək. «Hesabatla işlərin başa çatmasına yaxın biz öz qiymətli kağızlarımızı müxtəlif investisiya fondlarında yerləşdirmək üçün təşkilatçı-bank axtaracağıq», - Qasımov bildirib. «Amerika bazarı çox tələbkardır. Düşünürəm ki, biz bu bazara növbəti ildə - iki il üçün hesabatlara [BMHS üzrə] malik olduqdan sonra çıxa biləcəyik», - Qasımov bildirib. Onun sözlərinə görə, ARDNŞ qiymətli kağızların yerləşdiriləcəyi bazarı hələ müəyyən etməyib. ARDNŞ vitse-prezidentinin sözlərinə görə, Amerika sərmayədarları Dövlət Neft Şirkətinin qiymətli kağızlarının təqribən 70 faizini almaq istəyirlər. Belə ki, "onlar Azərbaycanı daha yaxşı tanıyırlar və onların təklifəri yaxşıdır". Lakin, ARDNŞ qiymətli kağızların Avropa və Asiyada yerləşdirilməsini istisna etmir.

**Azərbaycan Dövlət Neft Şirkətinin iştirak etdiyi şirkətlər alyansı Türkiyənin "Petkim" holdinqinin fəaliyyətini genişləndirmək niyyətindədir**

İzmirdə, İdarə Heyəti üzvlərinin növbəti toplantısında bir müddət əvvəl Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ, ingilis abbreviaturasında SOCAR) iştirak etdiyi şirkətlər alyansının 51 faiz iştirak payı aldığı Türkiyənin "Petkim" neft-kimya zavodunun istehsalının genişləndirilməsi məsələsi müzakirə edilib. Bu barədə ARDNŞ-ın yaydığı məlumatda bildirilir. Bundan əlavə, şirkətin texniki-təsərrüfat problemləri müzakirə edilib. Müşavirədə Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev iştirak edib. İdarə Heyətinin üzvləri İzmir əyalətinin Əliağa regionunda yaşayan vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması məsələsini nəzərdən keçiriblər. Bu rayonda həmçinin Heydər Əliyev adına ixtisaslaşdırılmış litseyin açılması planlaşdırılır. Tədrisi Türkiyə sənayesi üçün aktual olan ixtisaslar üzrə aparmaq nəzərdə tutulur. Məzunlar gələcəkdə "Petkim"də işlə təmin olunacaqlar. SOCAR/Turcas/Injaz alyansı "Petkim" holdinqinin səhmlərinin 51 faizini $2,04 mlrd.-a alıb. İlin ikinci yarısından şirkət idarəçiləri alyansı müəssisədə konkret işlərə başlamaq niyyətindədir. Alyans yeddi-səkkiz il ərzində holdinqə $10 mlrd. sərmayə yatırmaq niyyətindədir. Müəssisənin bazasında kömür və qazla işləyəcək iki elektrik stansiyası tikiləcək. SOCAR/Turcas/Injaz-ın Petkim-istehsalat imkanlarının müasirləşdirilməsinə yatırdığı investisiyalar bu müəssisənin Türkiyə bazarındakı rolunu hazırki 27 faizdən 40 faizədək artıracaq. Hazırda Türkiyə lazımi kimya məhsullarının 70-75 faizini idxal edir. SOCAR/Turcas/Injaz-ın Petkim-in inkişafına yatırdığı investisiyalar məhsul idxalını 30 faizədək azaltmağa imkan verəcək. Hər il Türkiyə bazarında kimya məhsullarına olan tələbat 12 faizədək artır. SOCAR/Turcas/Injaz Türkiyədə, kimya müəssisələrini xammala təmin etmək üçün Petkim-in istehsalat obyektlərinin yaxınlığında NEZ tikmək niyyətindədir. NEZ-in güman edilən illik emal gücü 6 mln. ton neft təşkil edəcək. Petkim plastik qablaşdırmalar, parçalar, PVC, yuyucu vasitələr istehsal edir və Türkiyədə belə məhsulların yeganə istehsalçısıdır. Şirkət məhsullarının dörddə birini ixrac edir.

**Azərbaycanın Dövlət Neft Şirkəti Türkiyənin iri tikinti şirkətində iştirak payının yarısını almaq niyyətindədir**

Azərbaycanın Dövlət Neft Şirkəti (ARDNŞ) və Türkiyənin Tekfen Holding şirkəti Niyyət Memorandumu imzalayıblar. Memorandum ARDNŞ-ın Türkiyənin tikinti holdinqində iştirak payı almaq arzusunu əks etdirir. Azərbaycanın Dövlət Neft Şirkəti Tekfen Holding-in tərkibinə daxil olan «Tekfen Inshaat» tikinti şirkətində səhmlərin 50 faizini almaq niyyətindədir. ARDNŞ Türkiyədə özünün iri infrastruktur layihələrinin reallaşdırılması üçün bu ölkədə tikinti şirkətinin alınmasını planlaşdırır. Bu ARDNŞ-ın Ceyhanda tikməyi planlaşdırdığı iri neft emalı zavodunun tikintisinə dair məsələyə aiddir. Tekfen Holding-in direktorlar şurasının rəhbəri Erhan Önər bildirib ki, şirkət Ceyanda neft emalı zavodunun tikintisində

iştirak şərtləri əsasında investor-təsisçi olmağı planlaşdırır. Bundan əlavə, ARDNŞ-ın iştirak etdiyi şirkətlər alyansı Türkiyənin iri neft kimya holdinqi Petkim-in səhmlərinin 51 faizini alıb. Tikinti şirkəti bu layihədə də iştirak edə bilər. ARDNŞ və Tekfen Azərbaycanda artqı əməkdaşlıq edirlər. Şirkətlər Azfen BM-i yaradıblar. Azfen BM BP-nin operatoru olduğu "Azəri-Çıraq-Günəşli" yatağının tammiqyaslı işlənilməsi çərçivəsində layihələrin reallaşdırılmasında iştirak edir. Bu platforma tikintisi və Səngəçal terminalının genişləndirilməsinə aiddir.

**ARDNŞ Türkiyənin tikinti şirkətində iştirak payının alınma imkanlarını öyrənir**

Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) Türkiyənin «Tekfen Holding» tikinti holdinqində iştirak payı əldə etmək üçün imkanları qiymətləndirir. Bu barədə jurnalistlərə «Xəzər neft-qaz – 2008» sərgisinin açılışında ARDNŞ prezidenti Rövnəq Abdullayev bildirib. «ARDNŞ mütəxəssisləri «Tekfen Holding»də iştirak payı əldə etmək üçün müzakirələr aparır, təkli f əri öyrənirlər», - deyə ARDNŞ prezidenti bildirib. ARDNŞ «Tekfen Holding»in tərkibinə daxil olan «Tekfen Inshaat»da səhmlərin 50 faizini əldə etmək niyyətindədir. ARDNŞ Türkiyənin tikinti şirkətində iştirak payı əldə etməklə bu ölkədə öz iri infrastruktur layihələrini reallaşdırmağı planlaşdırır. Bu, ARDNŞ-ın Ceyhan limanında neft emalı zavodu tikmək niyyəti ilə də bağlıdır. Şirkət Azərbaycanda neft emalı, kimya məhsulları istehsalının da daxil olacağı iri neft emalı kompleksinin tikintisinə də cəlb edilə bilər. Bundan əlavə, ARDNŞ-ın iştirakı ilə şirkətlər alyansı Türkiyənin «Petkim» iri neft kimya holdinqi səhmlərinin 51 faizini əldə edib. Tikinti şirkəti bu layihəyə də cəlb edilə bilər. ARDNŞ-dan bazar ertəsi bildirildiyinə görə, ARDNŞ və Türkiyənin «Tekfen Holding» şirkəti niyyət protokolu imzalayıb. Bu sənəddə ARDNŞ Türkiyənin tikinti holdinqində iştirak payı əldə etmək barədə niyyətini ifadə edir. ARDNŞ və «Tekfen» artıq Azərbaycanda əməkdaşlıq edir. Şirkətlər BP-nin operatoru olduğu «Azəri-Çıraq-Günəşli» yatağının tammiqyaslı işlənməsi çərçivəsində layihələrin reallaşdırılmasında iştirak edən «Azfen» Birgə Müəssisəsini yaradıb. Bu, platformaların tikintisi və Səngəçal terminalının genişləndirilməsinə aiddir.

**Hazırki şəraitdə elektrik enerjisi sektoru dövlətin mülkiyyətində olmalıdır**

Azərbaycan hökuməti hesab edir ki, hazırki şəraitdə elektrik enerjisi sektoru dövlətin mülkiyyətində olmalıdır ki, bu da strateji məsələlərin həllinə istənilən vaxt müdaxilə etmək imkanı verir. Bununla bağlı olaraq Azərbaycan hökuməti Cənubi-Koreyanın «Kepko» şirkətinin ölkədə özəl elektrik stansiyasının tikintisinə dair təkli f barədə hələ ki, qərar qəbul etməyib. «Kepko»nun Ələt qəsəbəsində (Bakı yaxınlığında) 818 MVt gücündə özəl istilik elektrik enerjisi stansiyasının tikintisi üzrə layihəsi 640 mln. manat (523 mln. avro) dəyərində qiymətləndirilir. «Kepko» tərə f ndən hazırlanan layihənin texniki-iqtisadi əsaslandırmasına görə, stansiya iki qaz və bir buxar turbinindən ibarət olacaq, FİƏ 57,27 faiz qiymətləndirilir. Stansiyada müasir qaz turbinlərindən istifadə nəticəsində saatda 1 kVt enerjinin əldə edilməsi üçün 0,185 kub metr təbii qazın istifadəsi nəzərdə tutulur, yəni 1 kub metr qazdan saatda 5,4 kVt elektrik enerjisi alınacaq. «Kepko»nun təkli f əri Azərbaycan üçün münasib olacağı təqdirdə, elektrik stansiyası 3-3,5 il ərzində tikiləcək.

# Beynəlxalq əlaqələr və hesabatlılıq

**Avropa İttifaqı (Aİ) ENP çərçivəsində 2009-10-cu illər üçün Azərbaycana yardımın istiqamətlərinin müəyyənləşdirilməsinə başlayır**

Azərbaycan hökuməti ilə Avropa Qonşuluq Siyasəti (ENP) çərçivəsində, 2009 və 2010-cu illər milli indikativ proqramlara daxil edilə biləcək sahələrin müzakirəsi üçün, Avropa komissiyası iyulun əvvəlində Bakıya nümayəndə heyəti göndərir. Bu barədə Avropa İttifaqının Azərbaycana texniki yardım proqramı (Tacis) üzrə koordinasiya bürosunun icraçı direktoru Rüfət Məmmədov məlumat verib. Bundan sonra növbəti iki ildə texniki yardımın göstəriləcəyi istiqamətlərin müəyyən edilməsi məqsədilə sektorların analizi aparılacaq. Məmmədovun sözlərinə görə, Aİ ekspertləri ilə 21-22 mln. büdcəyə malik 2008-ci il üçün indikativ proqram da müzakirə olunacaq. Hazırda iki istiqamət nəzərdən keçirilir - ədliyyə və aqrar sektor. Ədliyyə üzrə təkli f ər ötən ilin dekabrında hazırlanıb və penitensiar sistemin, regional məhkəmələrin, Ədliyyə Nazirliyi nəzdində fəaliyyət göstərən Ədliyyə Akademiyasının dəstəklənməsi, milli qanunvericiliyin Avropa standartlarına yaxınlaşdırılması nəzərdə tutulur. İkinci istiqamət üzrə əsas diqqət Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) daxil olması nöqteyi-nəzərindən kənd təsərrüfatında islahatlara veriləcək. Ümumilikdə 2007-2010-cu illərdə Azərbaycan üçün ENP-nin büdcəsi 92 mln. avro həcmində nəzərdə tutulub. 2007-2010-cu illər üçün ümumi büdcə 92 mln. avro məbləğində təsdiqlənib. Bu gün 19 mln. məbləğində olacaq 2007-ci il büdcəsi çərçivəsində yardımın istiqamətləri müəyyən edilib. 2007-ci il üçün indikativ proqrama üç istiqamət daxildir – dövlət büdcəsinin sektoral dəstəklənməsi üzrə alət, tvininq-proqram və texniki yardım. Tvininq proqramda təqribən beş layihəyə 5 mln. avronun artırılması nəzərdə tutulub. Qalan 14 mln. avro isə (bu vəsaitlərin 10 faizi büdcənin dəstəklənməsi alətinə texniki yardım üçün nəzərdə tutulur), digər iki komponent üçün nəzərdə tutulub.

**Aİ Azərbaycan büdcəsinin dəstəklənməsi üçün birinci tranşı maliyyə memorandumunun imzalanmasından sonra köçürməyə hazırdır**

Azərbaycan hökuməti Avropa komissiyası ilə Avropa Qonşuluq Siyasəti (ENP) çərçivəsində, 2007-ci il üçün indikativ proqram üzrə maliyyə memorandumunun imzalanmasını gözləyir. Bu barədə Avropa İttifaqının texniki yardım proqramı (Tacis) üzrə koordinasiya bürosunun icraçı direktoru Rüfət Məmmədov məlumat verib. Büdcənin dəstəklənməsi aləti üzrə enerji sektoru seçilib. Büdcənin maliyyələşdirilməsi vasitəsilə energetika sektorunda qanunverici və inzibati islahatların aparılması nəzərdə tutulur. Ümumilikdə 2007-ci ildə Azərbaycan üçün ENP-nin büdcəsi 19 mln. avro səviyyəsində müəyyən edilib. Onların üç istiqamətdə istifadəsi təklif edilib – dövlət büdcəsinin sektoral dəstəklənməsi üzrə alət, tvininq-proqram və texniki yardım. Tvininq proqram üzrə təqribən beş layihəyə 5 mln. avronun ayrılması nəzərdə tutulub. Qalan 14 mln. avro isə (bu vəsaitlərin 10 faizi büdcənin dəstəklənməsi alətinə texniki yardım üçün nəzərdə tutulur) ,digər iki komponent üçün nəzərdə tutulub. Vəsaitlər üç tranşla dövlət büdcəsinə köçürüləcək. Memorandum imzalandıqdan sonra 3 mln. avro həcmində birinci tranş köçürüləcək. Lakin, növbəti iki tranş Azərbaycanın Aİ-nin müəyyən etdiyi şərtləri yerinə yetirməsi ilə müşayiət olunacaq. Məmmədovun sözlərinə görə, onlar artıq Azərbaycan tərə f nə təqdim olunub. Aİ Azərbaycana hüquqi və institusional islahatlar keçirməyi təklif edir. Alternativ və bərpa olunan elektrik enerjisi mənbələrinin tənzimlənməsi üzrə Agentliyin yaradılması da buraya daxildir. Hazırda ENP proqramı çərçivəsində Standartlaşdırma, Metrologiya və Patent üzrə Agentlik, İstehlak bazarına nəzarət üzrə Dövlət Xidməti üçün tvininq-layihələr üzrə texniki tapşırığın hazırlanması gedir. Hər struktura ilkin olaraq 1 mln. avro texniki yardım göstəriləcək. Avropa komissiyası maliyyələşdirməni Tacis və MEDA-nın iki proqramı çərçivəsində həyata keçirmək niyyətindədir. 2007-2010 -cu illərdə Azərbaycan üçün ENP büdcəsi 92 mln. avro həcmində nəzərdə tutulub.

**Azərbaycan hökuməti və DB məcburi köçkünlərin iqtisadi inkişafı üzrə layihənin əlavə maliyyələşdirilməsi üçün müqavilə imzalayıblar**

Azərbaycan hökuməti ilə Dünya Bankı (DB) arasında cümə axşamı məcburi köçkünlərin iqtisadi inkişafına yardım layihəsinin (IDP EDSP) reallaşdırılması üçün əlavə vəsaitin ayrılmasına dair müqavilənin imzalanma mərasimi keçirilib. Birgə maliyyələşdirmənin ümumi həcmi 24,19 mln. dollar təşkil edir. Bu məbləğin 9,6

mln. SDR-i ($15 mln.) Beynəlxalq İnkişaf Assosiasiyası, 8,69 mln. dolları isə ($3,69 mln. ƏDV nəzərə alınmala), hökumət payı hesabına ayrılacaq. Baş nazir müavini, Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin rəhbəri Əli Həsənov imzalanma mərasimində qeyd edib ki, bu vəsait 2005-ci ildə DB-nin dəstəyi ilə reallaşdırılan və 2008-ci ilin sonunadək başa çatdırılması gözlənilən [Bu layihənin dəyəri 12,6 mln. dollar təşkil edirdi, bu məbləğin 11,5 mln. dolları DB kreditləri hesabına ayrılmışdı] layihənin davam etdirilməsinə yönəldiləcək. Lakin praktikaya baxmayaraq, layihə üzrə vəsait bir il əvvəl mənimsənildi və inf yasiya prosesləri səbəbindən, nəzərdə tututaln 200 infrastruktur mikro layihədən 50-nin reallaşdırılması başa çatdırılmadı. «Hökumət məcburi köçkünlərin problemlərinin həssaslığını nəzərə alaraq, əlavə maliyyələşdirlmə üçün DB-a müraciət edib. Bankın müsbət qərarı onun Azərbaycana etibarının göstəricisidir» - deyə Həsənov bildirib. Onun sözlərinə görə, layihə çərçivəsində 108 min məcburi köçkün fəyda götürəcək. Azərbaycan tərəf nin xahişi ilə bank mikrolayihələrin reallaşdırılmasında təşkilatların iştirak payını 3 faizə qədər endirməyə də razılıq verib. Yeni layihə də üç illiyə nəzərdə tutulub. O, özündə iki komponenti birləşdirir: təşkilatlar tərəf ndən məcburi köçkünlərə təklif olunan müxtəlif infrastruktur layihələrinin maliyyələşdirilməsi və layihənin reallaşdırılmasına dəstək. İkinci komponent çərçivəsində, Azərbaycan Respublikası Qaçqın və Məcburi Köçkünlərin Sosial İnkişafı Fondu xərclərinin ödənilməsi, əməkdaşlar üçün treninqlərin keçirilməsi, mikro layihələrin hazırlanmasına yardım, qiymətləndirmə və monitorinq üzrə məsləhət xidmətlərinin haqqının ödənilməsi, həmçinin, üç il ərzində auditor yoxlamaları üzrə xərclərin maliyyələşdirilməsi nəzərdə tutulur. DB-nın Bakı nümayəndəliynin rəhbəri Qreqori Yedceyçak Azərbaycan hökuməti ilə əməkdaşlıqdan razılığını ifadə edib və onun sözlərinə görə, əlavə maliyyələşmə üzrə hazırkı addım yaxşı praktikadır. Dünya Bankının Azərbaycanda qaçqın və məcburi köçkünlərin iqtisadi inkişafına dəstək üçün ilk krediti 2001-ci ildə 10 mln. dollar həcmində ayrılmışdı. Bu vəsaitlər hesabına məcburi köçkünlərin müvəqqəti olaraq kompakt yaşadığı yerlərdə infrastrukturun bərpa edilməsi üzrə 192 mikrolayihə maliyyələşdirilib. Bu layihədən 170 min nəfər xeyir götürüb.

**«WFP» proqramının fəaliyyətinin başaçatdırılması qarşılığında Azərbaycanda məcburi köçkünlərə dövlət yardımının genişləndiriləcək**

BMT-nin Ümumdünya Ərzaq Proqramının («World Food Program WFP») Azərbaycanda fəaliyyətinin başa çatması 2008-ci il iyun 30 - da dövlət səviyyəsində qeyd olunacaq. Bu haqda Baş nazirin müavini, qaçqın və məcburi köçkünlərlə iş üzrə Dövlət Komitəsinin başçısı Əli Həsənov bildirib. «Proqramın 15 il ərzində davam etməsi «WFP»-nin təcrübəsində presedentsiz hadisədir. Belə ki, heç bir münaqişə zonasında sözügedən proqram bu qədər uzunmüddətli olmayıb, - Həsənov qeyd edib. - Məcburi köçkünlərin probleminin həssaslığını nəzərə alaraq, ölkə başçısının xahişilə proqramın fəaliyyət müddəti üç dəfə uzadılıb». Onun sözlərinə görə, «WFP» Azərbaycandakı fəaliyyətini hələ 1999-cu ildə dayandırmağı planlaşdırırdı. 1994-2008-ci illər ərzində ÜƏP 500 min insana 164 min ton, ümumi dəyəri 115 mln.$-lıq ərzaq yardımı ilə təmin edib. Məcburi köçkün adambaşına ayda 6 kq buğda unu, 0,6 litr yağ, 450 qr qənd və 150 qr duz yardımı alırdı. Proqram fəaliyyətini başa çatdırsa da, Azərbaycan hökuməti ərzaq təhlükəsizliyi tədbirləri çərçivəsində, əhalinin aztəminatlı təbəqəsi üçün sosial yardımın (ərzaq alınması üçün) miqdarını artıracaq. «Bu qərar dövlət başçısının təşəbbüsü ilə qəbul olunacağı üçün, məcburi köçkünlər üçün nəzərdə tutulan sosial yardımın həcmi ölkə prezidentin müvaf q fərmanından sonra açıqlanacaq», - Baş nazirin müavini əlavə edib. Dünyanin iri humanitar təşkilatı olan ÜƏP 1963-cü ildə BMT-nin sistemində ərzaq yardımı orqanı qismində təsis edilib. Təşkilatın məqsədi aclıq və yoxsulluqla mübarizə aparmaq, inkişaf etməkdə olan ölkələrdəki yoxsullara yardım etməkdir. «WFP»-nin Azərbaycan üzrə təmsilçisi Linn Miller (Linn Miller) bu həftə bildirib ki, ərzaq məhsullarının dünya üzrə qiymətinin artımı bütün ölkələrdə, həmçinin, Azərbaycanda yoxsulluq dərəcəsinin artmasına gətirib çıxardacaq. «Dünya Bankının hesablamalarına görə, qiymət artımı fonunda hazırda əlavə olaraq 100 mln. insan yoxsulluq həddindədir. Heç bir ölkə bundan qaça bilməz», - Linn Miller əlavə edib. Bu səbəbdən «WFP» donorlardan əlavə vəsait üçün 800 mln.$ istəyib. Bundan əlavə, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı təşkilatı («FAO») və Kənd Təsərrüfatının Beynəlxalq İnkişaf Fondu («İFAD») yardıma ehtiyacı olan ölkələrin hökümətlərilə birgə, yoxsulluq dərəcəsini azaltmaq məqsədilə, ərzaq istehsalının artırılması yollarını axtaracaq.

## Azərbaycanda beynəlxalq maliyyə hesabatları standartlarının tətbiqi çətin gedir

Azərbaycanın beynəlxalq maliyyə hesabatları standartlarına (BMHS) keçməsi prosesi çətinliklə gedir, - Auditor Palatası sədrinin elmi məsələlər üzrə müşaviri Nəcəf Talıbov deyib. "Bu, çox vaxt tələb edən uzun və çətin prosesdir", - Talıbov bildirib. Nazirlər Kabinetinin bir neçə il bundan əvvəl təsdiq etdiyi siyahı üzrə, 20 ictimai əhəmiyyətli təşkilat 2008-ci ilin yanvarın 1-dək BMHS əsasında mühasibat işini aparmağa başlamalı və maliyyə hesabatını təqdim etməli idi. Lakin hazırda hesabatların yeni planına yalnız bank təşkilatları bütünlüklə keçiblər. Onlar 2004-cü ildə Milli Banka hesabatları iki - beynəlxalq və yerli standart üzrə təqdim edirdilər. Talıbovun sözlərinə görə, sovet vaxtında müəyyən edilmiş qaydalar üzrə maliyyə hesabatları ilə məşğul olan minlərlə insanı, tezliklə digər maliyyə hesabatlarına keçməyə məcbur etmək qeyri-mümkündür. "Bir neçə il əvvəl bütün dövlət və qeyri-dövlət təşkilatlarında avtomatlaşdırılmış kompüter sisteminin tətbiqi də qeyri-real görünürdü. İnsanlar tədricən dünya maliyyə- hesabat sisteminin ümumi qəbul edilmiş dili olan BMHS - ə də alışacaqlar", - Talıbov qeyd edib. Ölkədə BMHS-in tətbiqi ilə sərmayə iqlimi də yaxşılaşacaq və sərmayədarlar üçün vahid qayda üzrə maliyyə hesabatlarını aparmaq asan olacaq. Müşavirin fikrincə, BMHS korrupsiyanın ləğvinə və ölkənin hesablama sistemində tam şəffafığın tətbiqinə kömək edəcək. "Azərbaycanda beynəlxalq standartların tətbiqi dünya iqtisadiyyatına inteqrasiya yolunda daha bir əhəmiyyətli addım olacaq", - Talıbov deyib. Azərbaycanın "Mühasibat uçotu haqqında" Qanununda göstərilib ki, kommersiya təşkilatlarında milli mühasibat standartlarının tətbiqi 2007-ci ilin sonunadək başa çatdırılmalı, büdcə və qeyri-hökumət təşkilatları isə bu prosesi 2008-ci ilin sonunadək bitirməlidir. Kiçik və orta müəssisələr üçün 2006-cı il yanvarın 1-dək vaxt ayrılıb. Bələdiyyə, büdcə təşkilatları və dövlət fondları üçün müəyyən edilən son müddət 2009-cu il yanvarın 1-dəkdir.

## Azərbaycan və Slovakiya gömrük problemlərinin həllində əməkdaşlıq haqqında razılığa gəlib

Azərbaycan və Slovakiya hökumətləri Brüsseldə gömrük məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş imzalayıblar. Bu barədə Azərbaycanın Dövlət Komitəsinin Beynəlxalq Münasibətlər İdarəsinin rəhbəri Dilavər Fərzəliyev məlumat verib. Bu barədə məlumat Azərbaycanın Gömrük Komitəsinin rəsmi saytında yerləşdirilib. Azərbaycan və Slovakiya arasında gömrük işi sahəsində hüquq-müqavilə bazasının yaradılması nəzərdə tutulur. Gömrük orqanları sənəddə gömrük hüquqpozmalarının, o cümlədən, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin qarşısının alınması, təhqiqatın aparılması və aradan qaldırılmasında əməkdaşlığın möhkəmləndirilməsi haqqında razılığa gəliblər. Sazişin müddəalarına müvafiq olaraq, tərəflər sərnişin daşınmaları və mal dövriyyəsinin sadələşdirilməsi və sürətləndirilməsi məqsədilə tədbirlərin görülməsində, gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınması, təhqiq edilməsi və mübarizə aparılmasında qarşılıqlı yardım göstərəcəklər.

## Azərbaycan çirkli pulların yuyulması ilə mübarizə tədbirləri üzrə Avropa Şurası ilə məsləhətləşmələri davam etdirəcək

"Çirkli" pulların yuyulması ilə mübarizə üzrə İdarələrarası işçi qrup "Çirkli pulların yuyulması ilə mübarizə haqqında" Qanun layihəsi üzrə Avropa Şurası ilə məsləhətləşmələri davam etdirmək niyyətindədir. Bu barədə qrupun rəhbəri, Azərbaycan Milli Bankı İdarə Heyətinin sədr müavini Rüfət Aslanlı məlumat verib. Qanun layihəsi artıq nəzərdən keçirilmək üçün Milli Məclisə təqdim edilib. "Həm parlamentarilər, həm də ABŞ -ın Ədliyyə Departamentinin, Avropa Şurasının ekspertlərinin sənədə dair çox sayda sualları var, - Aslanlı qeyd edib. Biz bir neçə ildir ardıcıl olaraq ictimaiyyəti məlumatlandırırıq. Lakin bu iş davam etdirilməlidir; qanun layihəsinin mahiyyətini dərk edilməsi səviyyəsi bu istiqamətdə əlavə səylər tələb edir". Onun rəyinə görə, iyulun 22 - də Bakıda keçirilən və çirkli pulların yuylması və terrorizmin maliyyələşdirilməsi ilə mübarizəyə həsr olunmuş seminarda bir çox problemlər səsləndirilməyib. Tədbir Azərbaycan hökumətinin Korrupsiya ilə Mübarizə üzrə Dövlət Komissiyası və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) dəstəyi ilə ABŞ -ın Ədliyyə Departamenti və Avropa Şurası tərəfindən təşkil edilib. Xarici ekspertlərin rəyinə görə, nəzarət mexanizminin mövcud olmadığı ölkələrdə çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi riski bu mexanizmin mövcud olduğu ölkələrə nisbətən daha yüksəkdir;bu, yüksək gəlirlərin əldə edilməsi imkanlarını azaldır. Onlar hesab edirlər ki, beynəlxalq standartlara tam müvafiq olmaq üçün, bu qanun layihəsinin müəyyən sahələrinə yenidən baxmaq lazımdır.

Bu, xüsusilə də şübhəli əməliyyatlar üzrə hesabatlılıq, dövlətlərarası pul dövriyyəsi üzrə hesabatlılıq, həmçinin, hesabat qanunlarının gücləndirilməsi çərçivəsində maliyyə və biznes-öhdəliklərinə toxunur. Çirkli pulların yuyulması üzrə təşkilatlarla əməkdaşlıq, müsadirə mexanizmlərinin, pulların nəqd formada keçdiyi gömrük orqanları ilə, beynəlxalq əməkdaşlıq təşkilatları ilə iş mexanizmlərinin yaradılması çox vacibdir. Birinci oxunuş zamanı parlamentdə maliyyə axınlarının şəffa fığının təmin edilməsi mexanizmi, öhdəliklərin müəyyən edilməsi barədə müxtəlif fikirlər səsləndirilib. Qanun məbləği 20 min manatı ötən müqavilə və əməliyyatlar üzrə monitorinq sistemini tətbiq edir. Kredit təşkilatları, sığorta və təkrarsığorta təşkilatları, qiymətli kağızlar bazarının peşəkar iştirakçıları, kredit təşkilatlarının lizinq xidmətləri, poçt bölmələri və digər təşkilatlar vasitəsilə pul köçürmələri, lombardlar, investisiya fondları, qiymətli daş və metallarla əlaqədar müqavilələr və onlardan hazırlanmış məmulatların alqısı, qeyri-hökumət və dini təşkilatlar, lotereya təşkilatçıları, daşınmaz əmlakın alqı-satqısı xidmətləri göstərən şəxslər (rieltorlar), həmçinin, vəkillər, auditorlar, daşınmaz əmlakla əlaqədar müqavilələr, müştəri vəsaitləri, qiymətli kağızlar və əmlak, müştəri bank və depo-hesabları monitorinqə məruz qala bilər. Monitorinqin aparılması üçün xüsusi dövlət orqanı yaradılacaq. Qanun qəbul edildikdən sonra, payız sessiyasında hökumətin növbəti öhdəliyi Maliyyə Kəşfyyatı Orqanının yaradılması ola bilər.

***Mənbələr:***

http://www.taxes.gov.az
http://www.maliyye.gov.az
http://www.trend.az

Məsul redaktor: Kənan Aslanlı (İctimai Vəsaitin Monitorinqi Mərkəzi)
kenan@pfmc.az
http://www.nbg.az
http://www.pfmc.az